**Gülnar Qasımova**

*Yeni təhsil proqramı (kurikulum) üzrə*

# ENGLISH

*buraxılış imtahanlarına hazırlaşanlar üçün vəsait*

**2024**

**Gülnar Qasımova  ENGLISH (yeni təhsil proqramı (kurikulum) üzrə**
Bakı, Qanun Nəşriyyatı, 2024, 288 səh.

Ölçü: 165x235 mm
Cild: yumşaq
Çapa imzalandı: 31.10.2024

Korrektor: Gülnar Qasımova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Sabina Aydın
Qapaq dizaynı: Kənan Eynullayev

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0652

© Gülnar Qasımova, 2024
© Qanun Nəşriyyatı, 2024

İngilis dili vəsait
Yeni təhsil proqramı üzrə buraxılış imtahanlarına hazırlaşanlar üçün

Müəllifin icazəsi olmadan kitabın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsülla surətinin çıxarılması QADAĞANDIR!

İrad və təklifləriniz üçün:
qasimovagulnar1992@gmail.com
+994 509932444

## ÖN SÖZ

*Əziz abituriyentlər və yuxarı sinif şagirdləri!*

Buraxılış imtahanlarına hazırlaşan və yuxarı sinif şagirdləri üçün hazırlanmış bu vəsait orta məktəb dərsliklərinə uyğun tərtib edilmişdir. Yeni təhsil proqramına uyğun olaraq buraxılış və qəbul imtahanlarında baş verən yeniliklər öz əksini tapmışdır.

Orta məktəbdə qazanılan biliklərin daha da möhkəmləndirilməsi, onların daha da anlaşılan, sadə dildə olmasını təmin etmək kitabın yazılmasında əsas məqsəddir. Bunun üçün vəsaitdə sxem, cədvəl, düstür və digər köməkçi vasitələrdən istifadə edilmiş və nəzəri biliklərin mənimsənilməsini asanlaşdırmaq hədəflənmişdir.

Ümid edirəm ki, öz üzərində çalışmaq istəyən hər bir şagird bu kitabdan yararlana biləcək və yüksək nailiyyət qazanacaqdır.

Hər yeni nəşrdə təkmilləşəcək olan bu vəsait haqqında təklif və iradlarını bildirən şəxslərə əvvəlcədən təşəkkürümü bildirir və hər birinizə uğurlar arzulayıram.

*Gülnar Qasımova*

| ALPHABET/ ƏLİFBA | | | |
|---|---|---|---|
| Aa | [eı] | Nn | [en] |
| Bb | [bi:] | Oo | [ou] |
| Cc | [si:] | Pp | [pi:] |
| Dd | [di:] | Qq | [kju:] |
| Ee | [i:] | Rr | [a:] |
| Ff | [ef] | Ss | [es] |
| Gg | [dʒi:] | Tt | [ti:] |
| Hh | [eıtʃ] | Uu | [ju:] |
| I ı | [aı] | Vv | [vi:] |
| Jj | [dʒeı] | Ww | [dʌblju:] |
| Kk | [keı] | Xx | [eks] |
| L l | [el] | Yy | [vaı] |
| Mm | [em] | Zz | [zed] |

# Phonetics / Fonetika

Fonetika dilin danışıq səslərindən bəhs edən bir sahəsidir. Biz səsləri tələffüz edir və eşidirik, hərfləri isə yazır və görürük. İngilis dilində 26 hərf, 44 səs vardır. Səslərin hərflərdən çox olması ondan irəli gəlir ki, bir hərf vəziyyətindən, yəni sözdəki yerindən asılı olaraq müxtəlif cür səslənir. Hərflərlə səsləri qarışdırmamaq üçün **transkripsiyadan[ ]** istifadə olunur.

44 səs = 24 samit və 20 sait
Sait səslər = 12 monoftonq və 8 diftonq

**Monoftonqlar:**
[iː], [ɑː], [ɔː], [uː], [ɜː], [ɪ], [ʌ], [ɔ], [u],[æ], [e], [ə]

**Diftonqlar:**
[eɪ],[ʊə], [aɪ], [əʊ], [ɪə], [aʊ], [ɔɪ], [ɛə]

**Samit səslər:**
[p], [b], [t], [d], [k], [g], [tʃ], [f], [dʒ], [v], [θ], [ð], [s], [z], [ʃ], [ʒ], [h], [m], [n], [ŋ], [l], [r], [j], [w]

**HECA.** Tələffüz zamanı sözün asanlıqla bölünən hissələrinə heca deyilir. Adətən sait səslər heca yaradan səslər olur. Sait hərflər mənsub olduğu hecanın növündən asılı olaraq müxtəlif cür oxunur. İngilis dilində üç növ heca vardır:
a)açıq heca; b)şərti açıq heca; c)qapalı heca.

a) Sonu saitlə bitən hecaya - *açıq heca* deyilir; me [mi:] məni, mənə, he [hi:] o və s.

b) Sonu oxunmayan -e hərfi ilə əmələ gələn heca - *şərti açıq heca* adlanır; name [neɪm] ad, take [teɪk] götürmək və s. Açıq və şərti açıq hecalarda sait hərflər adətən öz adları ilə oxunur.

c) Sonu samitlə bitən hecaya - *qapalı heca* deyilir; hat [hæt] şlyapa, cat [kæt] pişik və s.

# Hərflərin oxunuşu

**1.A a [eı]** hərfi.

- açıq hecada **[eı]** kimi oxunur: name [neım] ad
- qapalı hecada **[æ]** səsini verir: man [mæn] adam
- vurğusuz hecada (artikl kimi) **[ə]** səsini verir:a pen [ə`pen] qələm
- ss/sk/st/ll/lt/th qarşısında **[a:]** səsini verir: ask [a:sk] soruşmaq
- **w** hərfindən sonra [ɔ**]:** water [wɔtə] su
- çox hecalı sözlərin axırıncı hecalarında və **d, g** hərflərinin qarşısında

[**i]** səsini verir: courage [`kʌrıdʒ] cəsarət

**2.B b [bi:]** hərfi.

**[b]** səsini verir: bag [bæg] çanta

**3.C c [si:]** hərfi.

- Adətən [k] səsini verir: cat [kæt] pişik
- **i , e, y** hərflərinin qarşısında isə [s] səsini verir**:** city [sıtı] şəhər

**4.D d [di:]** hərfi.

**[d]** səsini verir: dog [dog] it

**5.E e [i:]** hərfi.

- Açıq hecada [i:] səsini verir: he [hi:] o
- Qapalı hecada [e] səsini verir**:** pen [pen] qələm
- 2 və daha artıq hecalı sözlərin sonunda **e** oxunmur**:** name [neım] ad
- Qoşa **`ee`** uzun [i:] səsini verir: tree [tri:] ağac

**Qeyd:** qoşa nöqtə səsin uzunluğunu bildirir.

**6.F f [ef]** hərfi.

**[f]** səsini verir: five [faıv] beş

Bəzən isə **[v]** səsini verir: of [əv] ın[4]

**7.G g [dʒi:]** hərfi.

- [g] səsini verir: go [gou]
- **i, e, y** hərflərinin qarşısında [dʒ ] səsini verir: gym [dʒım] idman zalı

**İstisna**: give, get, begin, gift

**8.H h [eıtʃ]** hərfi.
[**h**] səsini verir: hen [hen] toyuq

**9.I i [aı]** hərfi.

- Açıq hecada [**aı**] - life [laıf] həyat
- Qapalı hecada [**ı**] - six [sıks] altı
- Alınma sözlərdə [**i:**] - machine [ mə`ʃi:n] maşın

**10. J j [dʒeı]** hərfi.
**[dʒ]** səsini verir: job [dʒob] iş

**11.K k [keı]** hərfi.
**[k]** səsini verir: book [buk] kitab

**12.L l [el]** hərfi.
**[l]** səsini verir: lake [leık] göl

**13.M m [em]** hərfi.
**[m]** səsini verir: milk [mılk] süd

**14.N n [en]** hərfi.
**[n]** səsini verir: nail [neıl] dırnaq

**15.O o [ou]** hərfi.

- Açıq hecada [**ou**] səsini verir: note [nout] qeyd
- Qapalı hecada [**o**] səsini verir: hot [hot] isti
- **n, m** hərflərinin qarşısında **[ʌ]** səsini verir: son [sʌn] oğul
- Qoşa **oo [u:]** səsini verir: room [ru:m] otaq
- **k, d, t** hərflərinin qarşısında **[u]** səsini verir: book [buk] kitab

**16.P p [pi:]** hərfi.
**[p]** səsini verir: picture [pıktʃə] şəkil

**17.Q q [kyu:]** hərfi.
**[kw]** səsini verir: queen [kwi:n] kraliça

**18.R r [a:]** hərfi.
Həmişə **[r]** səsini verir: bread [bred] çörək
**Qeyd:**sözün sonunda oxunmur: doctor [doktə] həkim

**19.S s [es]** hərfi.
Adətən [**s**] səsini verir: sister [sıstə] bacı

- 2 sait arasında : nose [nouz]
- cingiltili samitdən sonra: bags [bægz]
- saitdən sonra işləndikdə: his [hız]

} **[z]** səsini verir.

**İstisna:** goose [gu:s] qaz, house [haus] ev, this [ðis]

**20.T t [ti:]** hərfi.
**[t]** səsini verir: ten [ten] on

**21.U u [ ju:]** hərfi.
- Açıq hecada [**ju:]** səsini verir: use [ju:z] istifadə etmək
- Qapalı hecada **[ʌ]** səsini verir: cup [kʌp] fincan
- Bəzən isə **[u]** səsini verir**:** put [put] qoymaq

**22.V v [vi:]** hərfi.
**[v]** səsini verir: visit [vızıt] baş çəkmək

**23.W w [dʌblju:]** hərfi.
**[w]** səsini verir: water [wɔtə] su

**24.X x [eks]** hərfi.
- **[gz]** səsini verir: exam [ıgzæm] imtahan
- **[ks]** səsini verir: text [tekst] mətn

**25.Y y [waı]** hərfi.
- sözün sonunda **[i]:** many [menı] çoxlu
- sözün əvvəlində [**j]:** yes [jes] bəli
- təkhecalı sözlərin sonunda **[aı]:** my [maı] mənim

**26.Z z [zed]** hərfi.
**[z]** səsini verir: zoo [zu:]

### ***Samit hərf birləşmələri***

- ***ch*** - 3 cür oxunur:

1.adətən [**tʃ**] - kimi: chess [tʃes] şahmat
2.fransız dilindən alınma sözlərdə [**ʃ**] - kimi: machine [mə`ʃi:n] maşın
3.yunan və latın dilindən alınma sözlərdə [**k**] - kimi: school [skul] məktəb

- ***tch*** - [**tʃ**] səsini verir: match [mætʃ] yarış
- ***sh*** - [**ʃ**] səsini verir: she [ʃi:] o
- ***ck*** - [**k**] səsini verir: black [blæk] qara
- ***gh*** - iki vəziyyətdə olur:

a) sözün ortasında əsasən oxunmur: right [raıt] haqlı
b) sözün sonunda bəzən [**f**] səsini verir: enough [i`nΛf] kifayət qədər

- ***th*** - 2 cür oxunur:

a) [ **ð**] - kimi əvəzliklərdə, köməkçi sözlərdə, sözlərin sonunda, saitdən əvvəl və iki sait arasında: this [ðıs] bu
b) [**ɵ**] - kimi sözlərin əvvəlində (köməkçi sözlərdən və əvəzliklərdə başqa), sonunda, başqa dillərdən alınma sözlərin ortasında: thin [ɵın] arıq

- ***ng*** - iki vəziyyətdə olur:

a) [ŋ] - kimi sözün axırında : thing [ɵıŋ] əşya
b) [ŋg] - kimi [l], [r], [w] sonor səslərinin qarşısında: English [ıŋglıʃ] ingilis

- ***ph*** [f] səsini verir: phone [foun] telefon
- ***wh*** - iki cür oxunur:

1.[h] kimi - \`o\` hərfinin qarşısında : who [hu] kim
2.[w] kimi - qalan hallarda: what [wɔt] nə

- ***nk [ŋk]*** səsini verir: thank [ɵæŋk] təşəkkür etmək
- ***kn [n]*** kimi - sözün əvvəlində: knee [ni:] diz

**Qeyd**:\`k\` hərfi \`n\` hərfi qarşısında oxunmur.

- ***fy [faı]*** səsini verir: classify [klæsifaı] təsnif etmək
- ***qu [kw]*** səsini verir: queen [kwi:n] kraliça
- ***tion, ssion [ʃ]*** səsini verir:competition [kəmpıtʃın] yarış
- ***sion, sure*** - iki vəziyyətdə olur:

a) ***[ʒ]*** səsini verir (saitdən sonra): decision [disi ʒn] qərar
b) ***[ʃ]*** səsini verir (samitdən sonra): pressure [preʃə] təzyiq

- ***ys, ns, ds [z]*** səsini verir: days [deız] günlər
- ***nd [n]*** mürəkkəb sözlərdə səsini verir: sandwich [sænwıtʃ] sendviç
- ***bt [t]*** səsini verir: debt [det] borc
- ***w*** sözün əvvəlində **\`*r*\`** hərfinin qarşısında oxunmur: write[raıt] yazmaq
- Eynicinsli qoşa samitlər bir səs kimi oxunur: happy [hæpı] xoşbəxt